

# XOCAM XOCALI !

Ədalət Əsgəroğlu

Az 2.C12
1696

Ədalət Əsgəroğlu

# XOCAM XOCALI!

94330

94781

Bakı-2012

ARXİV

Ш6(2=Аз)7-5 + Ш5(2=Аз)7

**Redaktor : Zahir ƏZƏMƏT**

**Ədalət Əsgəroğlu**
***Xocam Xocalı!***
Bakı, «Ərgünəş», 2012, 112 səh.

Bir çox dəyərli kitablar müəllifi, istedadlı şair Ədalət Əsgəroğlunun bu kitabı üç bölmədən ibarətdir. "Poemalar" bölümündə müəllifin üç poeması toplanıb. "Xocam Xocalı!" poeması indiyə qədər Xocalı soyqırımı barədə yazılan əsərlərdən fərqlənir. Poemada Xocalının metafizik Xoca obrazı yaradılıb. "Dərdimizin qan rəngi" poeması da Xocalı faciəsinə həsr olunub. Ədəbi tənqidin fikrincə, poemada yaradılan Qan obrazı Azərbaycan poeziyasında yenidir.

"Qar üstə qırmızı yazı var" bölməsində müəllifin yaradıcılığında xüsusi yer tutan doqquz hecalı şeirlər toplanıb. Bu şeirlər müxtəlif mövzuları əhatə edir.

"Bəxt quşları da köçəridir" bölməsində isə ictimai-siyasi məzmunlu şeirlər yer alıb. Bu şeirlərdə günümüzün bir çox problemləri, ağrıları istedadla qələmə alınıb.

$Ə\frac{0301020000-12}{F-3532}$ qrifli nəşr

**© Ədalət Əsgəroğlu, 2012.**
**© «ƏRGÜNƏŞ», 2012.**

# Poemalar

# ƏN BÖYÜK ZIYALI - XOCALI!

Xocalı faciəsi haqqında ötən iyirmi ildə çoxlu şeirlər, poemalar, romanlar yazılıb, sənədli-publisitik kitablar nəşr edilib, tamaşalar, filmlər hazırlanıb. Yəqin bundan sonra da bu mövzuya müraciət edənlər çox olacaq.

Ədalət Əsgəroğlunun yaradıcılığında da Xocalı mövzusu yeni deyil. Faciənin on beş illiyində qələmə alınmış "Dərdimizin qan rəngi" poemasını buna misal göstərmək olar. Yetərincə maraqla qarşılanan poema tənqidin də diqqətindən kənarda qalmadı.

Beş il sonra müəllif yenidən bu mövzuya müraciət edərək, "Xocam Xocalı!" poemasını qələmə alıb. Bu poema Xocalı faciəsi haqqında yazılan çoxsaylı əsərlərdən bir neçə məziyyətinə görə köklü surətdə fərqlənir.

Əsərdə Xocalının fərqli obrazı yaradılıb. Adətən bu mövzuda yazan müəlliflər həmin dəhşətli hadisələri detallarına qədər təsvir etməklə, faciənin miqyasını göstərməyə çalışırlar. Nəticədə emosiyalar axarına düşərək, faciənin zahiri görüntülərindən o yana gedə bilmirlər. Amma Ədalət Əsgəroğlu təfərrüatlara çox varmır, daha çox Xocalı faciəsinin metafizik obrazını yaratmağa çalışır.

Anlamaq dərdini çəkdirin mənə,
Bu sirri, hikməti





Nə olur, nə olur öyrədin mənə…
Öyrənə-öyrənə belə qocalım,
Anlamaq dərdinə acam, Xocalı!
Xocalar türbəsi,
Xocam Xocalı!

... Sənsən böyük şair, böyük ziyalı!
Xocalar türbəsi,
Xocam Xocalı!

Gördüyünüz kimi əsərdə Xocalı öyrədən, yol göstərən ziyalı və Xoca obrazındadır. Amma Xocalar Xocamız azad deyilsə, Xalqın ən böyük ziyalısına əlimiz yetmirsə, millətə kim yol göstərəcək?

Müəllif Xocalıya xəyali səfərə hazırlaşır:

Səfərə çıxıram səfərim uzun.
... Parisdə, Eyfel qülləsinin başına fırlanıb,
Kreml saatının əqrəblərində
danq-danq danqıldayıb
yola düzəldim.
Ümid kökələri yeyib kökəldim.
Çox uzaq, halım yox...
Bu da Nyu York...
Hamıya, hamıya yetişə bildim,
... Yetişə bilmədim səñə, Xocalı...

Əsərin ən diqqət çəkən məqamlarından biri məhz Xocalının necə azad edilə biləcəyinə verilən cavabdır: Əgər Azərbaycan insanı azad deyilsə, köləlik, mütilik içində canı sıxılırsa, o, Xocalını

azad edə bilməyəcək. Öncə insan özü azad olmalıdır. Ziyalısı, millət vəkili, şairi, vətəndaşı azad olmalıdır.

Müəllif "boynu təyinatı üzrə sağa, sola bükülən" millət vəkilllərinin obrazını da parlaq canlandırır və haqlı olaraq, bu yolun bizi Xocalıya apara bilməyəcəyi qənaətinə gəlir:

Sol böyrümü dümsüklədim,
lal dayanan böyrək daşım!
Danış-danış...
... Düz on ildi lal durmusan,
Öz taxtında bayquş kimi
bardaş qurub oturmusan.
Sakitliyin üzür məni...
ağzı kilidli,
X hibridli
Millət vəkilisən sanki.
Bir az mürgülü,
boynu təyinatı üzrə
ya sağa, ya sola bükülü
boyunduruğun zəhni,
köləliyin vəkili.

Bəs necə azad olmalı? Bəs "iliyimizə işləyən bəladan" necə qurtulmalı? Müəllif bu suala cavab vermir, çünki söhbət kütləvi azadlıqdan yox, fərdi, ruhi azadlıqdan gedir. Bu yolu isə hər kəs özü axtarmalı, özü tapmalıdır.

Müəllif də həm Xocalıya xəyali səfərini necə yekunlaşdırmağın, həm də ruhi azadlığının yollarını axtarır.

... Və tapır. Elə bu tapıntı da əsərə layiq kulminasiya gətirir: Əgər Xocalıya gedə bilmirsənsə,





Xatına, Holokosta get, oradakı qurbanların xatirəsni yad et. Axı Xocalı məhəlli yox, bəşəri faciədir. Bu soyqırım yalnız azərbaycanlılara qarşı yox, bütün insanlığa qarşı yönəlmişdir.

Xocalı!...
Xocalı, sənin adına
axışır insanlıq...
Gəlir sən ünvanlı
tarixin qan boyalı yeri-
Xatına, Holokosta...
Bu adlar,
Susmayan fəryadlar...
Axın-axın boylu insan
göz yaşını silə -silə
qaranlığı daşıyır
sabahlara hamilə
Nəyi
Kimi
Doğacaq?..
Doğuşuyla
Kimi
Nəyi
Boğacaq?
... Axın-axın gedir insan.
... dirilərin ehtişamı-
ölülərin haqq salamı!
Xocam, sənə üz tuturam,
üz tutduğum yer,
türbədir.
Xocam, sənin hüzurunda
diz çökürəm,
Bu səcdədir,
Bu tövbədir.

*Zahir Əzəmət*

# XOCAM XOCALI!

Xəstələnməyə vaxt yox,
Sağalmağa imkan.
Ölürəm uzun-uzun,
Yaşıyıram nakam.
Kədərim dünya boyda
Daşınır karvan-karvan.
Hardakı mən çoxam,
Yoxluq ona sarvan.
Yalan-zaman kəsiyi
Önündə bizik müntəzir
Həqiqət qapıda it döyür
Ütülmüş bütlərə
ad gəzir.
Don vurur soyuqdan göyərir,
Göylərdə yazılan yazı.
Nağıllar uzunluğuyla
şirin,
Həqiqət qısalığıyla acı.
Boğulub içində qalan
Doğulur amansız boşluğa.
Başlarda bir kənək qoz qırır
Qırası zəhərli baş buğa.
Olumlar cılız-cılız,
Ölümlər miskin-miskin.
Məmləkət bölük-bölük,
Aydınlıq
göz qapaqları
altında itkin.
İtmiş ocaqların yeri
Bitmiş şərqilərin sonu.





Qana bulaşmış gül çöhrəsi
Şəfəqlər dan yerində donur.
Sabahın qoynu yalanla dolu,
Göyərçinlər yalana bulaşır.
Səfillik fit çala-çala
Yalanla qol -boyun dolaşır.
Gecənin sirri sabah.
Sabahın sirri - Neynək?
Gülə -gülə ağlamaq
Ağlaya -ağlaya gülmək.
Qurdun quzuya ulaması,
Quzunun qurda mələməsi…
Bu, bir yanıqlı tütək səsi,
Qarabağ gözəlləməsi…

Xocam, günahım qocaldı
Mənə dərd çəkməyi öyrət.
Öyrət, qından çıxmağı
Qanımı duruldan qeyrət.

Uca saraylara baxır kimi
Baxım ayağım altındakı
torpağa
Götürüm yükümü sini-sini
Sığınım sümülmüş ocağa.

Adım varsa odum da var
Odumu aldınmı zalım?
Dağlanan hallar gördüm
Demə, necədi halım?

Dalğalanan namələr
Kəlmə-kəlmə kərəm deyir.

Zülm qənim kəsiləndən
Tüstülənən mənəm deyir.

***

Şeytana daş atan
hacılar gəlsin,
Mənim yaşamağım
şeytan işidi.
Şeytana dəli demə,
mənə dəli de!
Mənim dəliliyim
insan işidi…
Mələklər əlində
ağ kağız gəlsin,
lələk qələmiylə
yazsın bu dərdi.
Deyilsin, yazılsın
ürək dolusu,
Saymaqla qurtarmır
gör nə qədərdi?
Şikayət ərizəsi-
ünvanı Allah,
Torpaq yiyəsizmi,
göy yiyəsizmi?
Amansız qalanın
amanı Allah!
Zalımlar bu qədər
sənə əzizmi?
Bilirəm səbrin var
dünyalar qədər,
Tükənib sinəmdə
dağları aşmır.
Bəlkə də deşilib
şeytan əliylə





Səbr kasaları
daşmır ki, daşmır.
İliyə işləyən
bu bəla hardan,
Azad yaradırsan
axı insanı?
Sənə boyun əyib,
aman dilərik,
Köləlik şah olub
kəsir amanı…
Haqqı ucalarda
bakirə gördüm
Qüdrəti daşları
mum eylədi, mum.
Məzluma zülm edib
zalımlıq edən,
Başqa zalım üçün
məzlumdur məzlum.
Fərman «qul aşiqi»
imza iblisin,
Düdük havasını,
çözər düdüklər.
Aləmi «bəzəyər»
yoluq beçələr,
Yeni bəzirganlar -
- şanapipiklər.
Mənə doğma olan
ömür yaddaşım,
Hərdən də pozulur,
«üzü ağ» çıxır.
Təkhecalı haqqı
atsam qutuya
Ordan çoxhecalı

bir nahaqq çıxır.
Qızıla rəng verdim
ağdan, qaradan,
Çəkdim hüzuruna
şöhrəti, şanı.
Ağnan başlar kəsdim
günah içində
Qaraynan gizlətdim
günahsız qanı…
Yer dələr, göy dələr
zalım inadı
Ahı dağlar yaxan
ürəklər sağır.
Bu dərdin, kədərin
yeddi qatından
Bu zatı qırıqlar
yıxılmır axı…
Hər kəsin öz dərdi,
özünə dəvə,
Gedirəm dağ əyri,
dərə düz çıxır.
Enişdə qarşıma
könlü pərişan,
Yoxuşda qarşıma
dələduz çıxır.
İçini qurd yemiş
ağac kimiyəm.
Dərdim dərmə-dərmə,
düyün-düyündü.
Bu günün bətnindən
doğulan sabah
Mənə bu günümdən
acı göründü.





Fələk öz işində
gərdişi bəlli.
Dondan-dona girir,
ah fəqan edir
baxıb «xoş halıma»
üzün döndərir
Əlini yelləyib
bədgüman gedir.

***

Başıma dar gələn
bu gen dünyanın,
Başıma fırlanan
bu yerin, göyün.
Sirrini bilənlər
mənə də deyin…
Bilirəm ağlamaq,
gülmək dərdini,
Doğulub sürünə-sürünə
ömür sürməyi
Yaşayıb, yaşamayıb
ölmək dərdini .
Anlamaq dərdini
çəkdirin mənə,
Bu sirri, hikməti
Nə olur, nə olur
öyrədin mənə…
Öyrənə-öyrənə
belə qocalım,
Anlamaq dərdinə
acam Xocalı!
Xocalar türbəsi,
Xocam, Xocalı!

Qızılgül ətrinə
    bürünüb gəzmək,
Qızılgül şövqülə
    sevmək sevilmək.
Qızılgül rəngində ölmək,
    ölüb sonra dirilmək
Yoxdan var olanı
    şahanə görmək...
Dərd dərdə dəyəndə
    yanıb-yanıb
        kül ola bilmək...
Şirin yuxuları
    ərşə çəkdirən,
haqqı qapı-qapı
    sərgiləndirən...
Həqiqət şərqim var
    acıdan acı...
Zəhər tuluğuyam
    dili haçalı,
Xocalar türbəsi,
    Xocam, Xocalı!

Dünyanın içində
    mən diriyəmsə,
Mən qəm eyləyən
    ney səsiyəmsə.
Zalım qələmiylə
    bənd-bənd kəsilən
Miskin yazılarda
    əriyirəmsə
Günahkar mənəmmi,
    yoxsa dünyamı?
Sındırın,





    sındırın gümüş aynamı.
Haqdan aynalanan
    sabahım varsa,
Kədər ümmanından
    boy verib bala
Sabahlar eşqinə
    boylanıramsa...
Səma yazıları
    başımın tacı
Şükür ki, ocağım,
    tüstüm bacalı!
Xocalar türbəsi,
    Xocam, Xocalı!

Millənən yazılar
    palaz-palazdı,
Palaza bürünüb
    elnən sürünər.
Silkələnən dağlar
    çalın çarpazdı
Uzaqdan baxana
    susqun görünər.
Gəzər ölkə-ölkə
    dildə-ağızda,
Söz-söz sıralanar,
    cücə ümidlər,
Sayılar,
    bilinər sayı payızda.
Dibsiz quyularda
    tıncıxan dərdim,
Bulanan, durulan
    bu qəm, bu kədər,
Tum kimi çırtdanar

yeyilər gedər.
Göz yaşı bitirmir
qədr ağacı,
Əyilməz haqqımsan
qollu-budaqlı!
Xocalar türbəsi,
Xocam, Xocalı!

Sanma daş ürəkdən
daş qoparırsan,
Sözü qanan kəsə
deyərlər şair!
Zalımlar görsə ki
baş aparırsan,
Səni diri-diri
yeyərlər şair!
Məhşər ayağına
çəkərlər səni,
Gəzərsən könlü boş,
başı havalı,
Havanı çaldırar
halvası dəymişin
zurna-qavalı…
Qorxub çəkindinmi?
Zaman qeyrət umur
söz yiyəsindən,
Sözə sahib çıxan
vicdan, ziyalı!
Ziyalı susanda
şair ölürsə
Ölüm zəngi çalır
çərxin zavalı,
Zavallı dərdlərin



94330



könül möhtacı,
Sənsən böyük şair,
böyük ziyalı!
Xocalar türbəsi,
Xocam, Xocalı!

***

Deyirlər ki, toy olacaq,
Evlənəcək Bəyalı...
Kövrək-kövrək
çalınacaq vağzalı,
Boy-boy sıralanacaq
sabahların düzümü- yallı...
Bölük-bölük,
xurcun-xurcun,
beşik-beşik,
qucaq-qucaq
Sualla dolu yol-
uşaqlı, qocalı
Xocalı?...
Xocalı!...

Boyuna baxdılar,
toyun çaldılar,
Oyuna saldılar
havası qanı,
Qanına susayıb
qanın aldılar:
- Bircə içimlikdir
bu necə candı...
Onun gəlinciyi
süngü ucunda
Süng edib uçuşan

and-amanları.
Qanadı sınmışlar
belə uçanda
Uçur insanlığın
xanımanları...
Boylanır, tullanır
boyundan uzun
Məsafə qaş ilə
göz arasıdı...
Ölüm nöqtəsində
dayanma quzum!
Çoxdur görəcəklər...
bu harasıdı?
Üç yaşlı oğlanın,
üç yaşlı qızın
Gəlincik oyunu,
bəycik oyunu
İti süngüsündə
bir amansızın.
Soruş yellənənin
kim olduğunu.
Bu ki təbəssümdür
sular sonası,
bir cənnət quşudur
heyrət içində.
İpəkdən donunu
tikdi anası,
Ölüm ilmə vurdu
qan biçimində...
Üzündə lal sükut
donuq təbəssüm,
Ovcunun içində
bir qırmızı lent.





Rəssamlar. durmayın,
bir az tələsin!
Böyük sərgilərə
brenddir brend...
Açıq gözlərində
qan damlaları,
Gəzdir, gözlərinə
yığsın dünyanı,
Bəlkə düşməyəcək
bir də güzarı,
Görsün görmədiyi
cini, şeytanı.
Tanrı belə çəkib,
belə də saxla,
Yoxsa nəfəs dəyər,
rənglər dəyişər...
Cəllad əməlini
gerçək söyləsən
Şəkil çərçivələr
qırılar düşər.
Çərçivə, sığırmı
bu ağrı sənə?
Çilik-çilik edər
səni ahu-zar,
Gəldin insanlığın
ulu dərsinə.
Doğulur tövbələr
ölür günahlar...
Şəkil sözə çəkir
gur salonları,
Danışır ruhların
ciyərparəsi...
Ötür dəvə-dəvə

qəm karvanları,
Dünyanın qəmkeşi-
-Zəminxarəsi...

***

Səfərə çıxıram,
uzaq səfərə...
Bələdçi özüməm
görünən dağa.
Əgər çata bilsəm
ora bir dəfə
Min yol yüyürərəm
çox-çox uzağa.
Əlimi uzatsam
dəyər telinə,
Barmaq silkələsən
burnu üşüyər.
Qara selbələri
atsam eninə
Yenə də bəxtimə
uzunluq düşər.

Uzaqmı, yaxınmı?
ölçü bilinmir...
Ölçü vahidləri
pozur yaddaşı.
Yaxınlıq yol azıb
yaxına gəlmir,
Uzaqlıq yol azır
hər addımbaşı...

Səfərə çıxıram
səfərim uzun.





Çox yollar ağardan
ağ günlü yorğun...
Parisdə, Eyfel qülləsinin
başına fırlanıb,
Kreml saatının
əqrəblərində
danq-danq danqıldayıb
yola düzəldim.
Ümid kökələri
yeyib kökəldim.
Çox uzaq, halım yox...
bu da Nyu York...
hamıya, hamıya
yetişə bildim,
Nə qədər yaxınsan,
nə qədər doğma,
Bir ömür nə qədər
uzaq, aralı...
Yetişə bilmədim
sənə Xocalı...

Torpaq silkələnib
rəngi dəyişib?
Pərən-pərən düşüb
kəndlər, şəhərlər.
Bəlkə yerin oxu
daşa ilişib?
Bəs necə dönəcək
çərxi-fələklər?

Əli ətəyindən
uzun kimdi ki,
Əli ətəyindən

qısa gələn var.
Nə qədər uzatsam
sənin ətəyinə yetişmir əlim.
Arada yaxası
cırılmış dağlar
Yollara dağılmış
şirin noğullar,
qarımış, qartımış
uzun nağıllar.
İstəsən mazutda,
qazda boğulan
Üzü çopur-çopur
qəmi kədəri
Uf belə demədən
göndərim ton-ton...
Qrammofon Moskva,
post Vaşinqton...
Dəyişməz, korşalmaz
səsimin tonu
Yerində sayanın
nə haqqı-sayı?
Sayanın, seçənin
kəsilmir kökü
Balqabaq tağında
yetişir tayı.
Arpasın bölənmir
iki eşşəyin...
Oturub onunla
dərd bölüm bəlkə?
Necə yaşamağın,
necə ölməyin?
Dadını bilmirsə
bu boyda ölkə...





Bu şirin məmləkət,
bu sevimli xalq,
Bu qədər möhnəti
çəkir haqq, nahaq.

Nə qədər yaxınsan,
Xocam, Xocalı!
beləcə üz-üzə
dururuq hər gün.
Mən başı aşağı,
sən qaşqabaqlı,
Kəndirim dartınır
əlində qərbin.

İblisin, şeytanın
ara qatmağı,
Haqqın əyilməyən
qəddini əymiş.
dünyanı fırlanıb
sənə çatmağım
Gülməli deyilmiş,
möcüzə imiş...
Kamil qaboyunun
"Zəminxarə"si
Sən demə hönkürüb
bunu deyirmiş...

***

Qırçın-qırçın sətirlənir,
bir qırçı əlilə
yazılıb sanki.
Baş kəsənin
zil qara gözlüyü,

Daş kəsənin gözlüyə oxşar
yarağı,
qan batırmağa gələn
missionerin qatır balasına
yem-sözlüyü.
Dalğa-dalğa namələr,
halqa-halqa
zülm möhürləri-
beləcə ikiqat bükülü,
Özü yazar,
özü oxuyar.
özü deyər,
özü eşidər...
Bir sərxoş-parabeyin
yaz havası kimi mürgülü.
Daşı toz eləməyin yolu
Başdan keçir,
yəni başı qoz kimi dolu.
mavi gözlü div kimi nəfs.
olmayan səs,
vurulmayan hədəf...
Nişangah - boynu bükük bənövşə
Nostalji bir xatirə çələngi
«Belə olaq həmişə»
Sol böyrümü dümsüklədim,
lal dayanan böyrək daşım!
Danış-danış...
... Düz on ildi lal durmusan,
Öz taxtında bayquş kimi
bardaş qurub oturmusan.
Sakitliyin üzür məni...
ağzı kilidli,
X hibridli





Millət vəkilisən sanki.
Bir az mürgülü,
boynu təyinatı üzrə
ya sağa, ya sola bükülü
boyunduruğun zəhni,
kələliyin vəkili.

***

İblis dəst xəttini
milə mil çəkib.
Milçək həvəsilə
yekə til çəkib.
Bəyaz yalan üstdən
qara tül çəkib,
Oxuya bilməzsən
o yazıları.

Qəm-kədər sarayı
lay-lay sökülə,
Göylərin yaxası
sına, tökülə.
Gerçək azan çəkə,
mələk hönkürə,
Oxuya bilməzsən
o yazıları.

Nöqtəsi, vergülü
sualla dolu,
Sual şişib durub
zülümə boylu,
Quş başı nidalar
başı alovlu,

Oxuya blməzsən
o yazıları.

Elə şax yazılıb
üzü qırışmır,
Yatmır insanlığa,
haqqa uyuşmur.
Dəryada boğulmur,
odda alışmır
Oxuya bilməzsən
o yazıları.

Bu işin xəttatı
şeytandı, çağır,
Zəhmindən zəhrimar,
zinalıq yağır
Bu dərd dağ cüssəli,
dağlardan ağır,
bu iş sənlik deyil
oxuya bilməzsən
o yazıları.

***

Sənə yol gəlirəm,
ömrüm-günüm.
Yəqin ki yetərəm
bu arzuma da.
Mənim ürəyimə
xal salan düyün,
Falçılıq felinə
uyuşmasa da...





Bu, bir rəzillikdi...
- falçı əməli
Guya ki sabahkı
halıma baxır.
Cadu fırıldağı,
görücü əli,
Məni köləlikdən
çıxarmaz axı...
Köləlik, mütülük
sıxır canımı,
Elə «sığal» çəkir
azadlığıma.
çarmıxa çəkəndə
həyəcanımı,
Həya çıraq olmur
quru canıma.
Sənə yol gəlirəm
Xocam, Xocalı!
Azadlıq eşqimdi
sənə əmanət
Yaxından, uzaqdan
səslər ucalır.
Ədalət, ədalət,
sənə ədalət!
Sənin ədalətin
dünya boyunca,
Yürüyür, yeriyir
təlaş içində...
Küskün göyərçinlər
belə uçunca,
Kürsülər yıxılır

savaş içində.
Ədalət sözünü
kim uydurub, kim?
Kasıba, gücsüzə
dözüm yarlığım?
bu boyda axına
köləlik hakim
hakimi -mütləqmi
mütü varlığım?
Qarışdırır günah
bomboz rüzgarı,
Kimdir etirafa
bəraət yazan?
Sənə demədimi
haqqın yazarı?
Söylə həqiqəti
ədalət qazan!
Azadlıq, bu sözə
vurğunam qəlbən.
Qəlbən azad olmaq
tükənməz sərvət.
Doğma Qarabağsız
azadammı mən?
Miskin köləliyə
şahid həqiqət!
Yedim zəhər kimi
qəmi, kədəri,
Tıxdım xirtdəyəcən
qarı dözümdən.
Kim qopara bilər
divanələri





Alın yazısından-
- savaş sözündən.

***

Xocalı!...
Xocalı, sənin adına
axışır insanlıq...
Gəlir sən ünvanlı
tarixin qan boyalı yeri-
Xatına, Holokosta...
Bu adlar,
Susmayan fəryadlar...
Bunlar, qan çanağının
vurub açdığı
şaqraq qan bulağı...
Axır tarix boyu
enişə, yoxuşa
məhəl qoymadan
belə isti -isti
par verə -verə,
bir an soyumadan...
Mat qalıb donmuşam,
buz bağlamışam,
buzum arşın- arşın,
Donur alqışım, qarğışım.
Doyur qan yaddaşım.
Axın-axın boylu insan
göz yaşını silə -silə
qaranlığı daşıyır
sabahlara hamilə
Nəyi

Kimi
      Doğacaq?..
Doğuşuyla
      Kimi
      Nəyi
      Boğacaq?
Bol sevgimi qucaq-qucaq?
Qan-qadamı çəllək-çəllək?
Dərd-kədərmi karvan-karvan?
Doğru-dürüst, yalan-palan,
Axın-axın gedir insan.
... Bir yuxunun
      yozumunu pozub duran,
bir yazının boğazına
      halqa vuran.
qan içənin
      nəşəsindən sərxoş olan,
Havalanan həqiqətin
      haləsində kölgələnən,
      gah keflənən,
      gah kiflənən.
Gah bitlənib birələnən,
      dirilərin ehtişamı-
            ölülərin haqq salamı!
Xocam, sənə üz tuturam,
üz tutduğum yer,
            türbədir.
Xocam, sənin hüzurunda
      diz çökürəm,
Bu səcdədir,
Bu tövbədir.





***

Qonsam dan yerinə
azad, hürr kimi,
Dolansam başına
eşqi pir kimi,
Açılsa ürəyim
qızıl gül kimi,
Haqqı tər sinəmə
qızılı yazsam?
Yazsam, yeymi, Xocam?

Gecədən səhərə
axan sirr olum!
Şükürlər içində
şükranə yolum!
Sənin hüzurunda
nədir ki ölüm?
Bağlı düyünlərin
bağını açsam?
Açsam, yeymi, Xocam!

Qazilər ən gözəl
şərqini yazdı,
Sevgisi qol-boyun
Kürdü, Arazdı.
Ahı sinə yaxdı,
bu hələ azdı,
Hələ yıxılmalı
dağları aşsam?
Aşsam, yeymi, Xocam!

Mənə anlatdığın
həqiqət, andım!
Gerçəklər əzmini
mərdanə sandım!
Yandım bənövşəyi,
şahanə yandım!
Zəfər bulağı tək
qaynayıb daşsam?
Daşsam, yeymi, Xocam!

Dərsin görünməyən
ibrət dərsidi,
Alın yazısının
sağdan tərsidi.
Səsin divanilər
müqəddəsidi,
Sənsən haqq aşiqi
hayana baxsam...
Baxsam, yeymi, Xocam?

Sən əlli milyonsan,
bəlkə də çoxsan,
Ədalət axtaran
pirani haqsan.
Sabahlar eşqinə
qurtulacaqsan,
Səninlə əbədi
baş-başa qalsam?
Qalsam, yeymi, Xocam?





# DƏRDİMİZİN QAN RƏNGİ

Ədalət Əsgəroğlunun "Dərdimizin qan rəngi" poeması Xocalı soyqırımının on beş illiyinə həsr olunub. Ancaq elə düşünürəm ki, Ədalət konkret bir mövzuya müraciət etsə də, hədəf daha genişdir. Burada son iyirmi ilin Azərbaycan məmləkəti DƏRDIMIZIN QAN RƏNGI obrazında metaforikləşib. Qan burada tarixdir – bir məmləkətin təklənməsi, səsinin, fəryadının boğulması, öz içində qərq olmasıdır. Ədalət Əsgəroğlu qan kəlməsinin doğurduğu bütün mənalara, metaforik çalarlara üz tutur.

... nə əsəb,
dərd deyirlər buna?
Yox, oğlum, dərd deyil bu!
Bu, müqəddəs bir can!
Ortalıqda dumduru qan
Axır... axır... axıracan...
Xocalıdan Bakıyacan,
Qan boyalı villalardan
Cana doymuş çadıracan.

Bu təsvirdən sonra Ədalət poetik gücü zəiflətmədən publisistik ahəngi qüvvətləndirir. Dərdimizin niyə qan rənginə boyanmasının səbəblərini açıqlayır. Aşıb-daşan sərt etirazlar gəlir, bu ehtirazlar, əslində ittihamlardır. Poeziyanın, bir şair ürəyinin etirazları...

Milli Sərvət –
Millət qanı...
canlı tarix.
Milli Sərvət –

qanım mənim
gah tıncıxan,
gah üzülən canım mənim.
Bu boyda qan
bu yolda can
niyə olmur sənə qurban,
Azərbaycan!
Sənə qurban, Azərbaycan.

Bu misralar poemanın sonluğudur. Müəllif bir-iki xarakterik səhnə ilə əsərin faciəliyini artıran çalarları gücləndirir. Qızıl gülə bənzəyən bapbalaca qızcığaz "qan-qan!" deyib qışqırır. "Bu qızıl gül qönçədir hələ, sinəsindən qan fışqırır". O bapbalaca qız xəyallarda böyüyür, qan içində, öz qanının arxasınca baxır, gəlib on beş yaşına çatır. İllər keçir Xocalı şəhidləri Qan Qiyafəsində qapımızı döyürlər, bizi qisasa çağırırlar.

Ədalət Əsgəroğlu Azərbaycan poeziyasında yaşanan Qan obrazına yeni qan verib desək, yanılmarıq. O, dərdimizin qan rəngini poeziyamızın qan rənginə çevirə bilib.

Dərdin qan rəngi...
qan, qan, qan!
Boya göy üzünü,
Göy üzü bölünənəcən,
Bürü yer üzünü,
Bu sevda ölənəcən!
Dünya yenidən doğulanacan.

***Vaqif Yusifli***





# DƏRDİMİZİN QAN RƏNGİ

(Xocalı soyqırımının 15 illiyində qələmə alınıb)

Ağlamalı dərd deyil bu,
zülüm-zülüm ağlayasan...
Sıxasan gözlərinin qarasını
qora kimi,
göz yaşının yanğısında
dərdini də şişə çəkib
dağlayasan...
Saxlamalı dərd deyil ki,
qoyasan ürəyinin başına...
saxlayasan, saxlayasan
varislərə miras qala.
Atmalımı?
necə atasan?
Udmalımı,
necə udasan?
Oğul deməzmi
necə oğulsan?
necə atasan?
Necə udasan.
Canım, gözüm, baba!
Belə vətəndaşlıqmı olur?
Satmalımı?
Kimə satasan?
Belə alver, belə bazarlıqmı olur?
Bu da torpaq deyil ki,
Arşın-arşın ölçəsən,

satqınlara yem edəsən...
çıxıb gedə
günlərlə, aylarla, illərlə...
Sonra da düşəsən
uzun-uzun yollara
üz tutasan
dünyanın hər tərəfinə
sızlayasan,
yaxanı, üz-gözünü cırasan.
Tarixin səhifələrinə axan
qızıl qan
axır... axır... axıracan.
axar-baxarlı yerəcən...
Tükləri ipək göyərçinlərin
dimdiklərinəcən,
arxalı köpəyəcən.
Boğazınacan, ağzınacan...
qanla dolu
lap ləbələb...
nə əcəb,
dərd deyirlər buna...?
Yox, oğlum, dərd deyil bu!
Bu, müqəddəs bir can!
can, can, can
Bir də, bir də Azərbaycan!

Ortalıqda dumduru qan,
axır... axır... axıracan.
Xocalıdan Bakıyacan,
qan boyalı villalardan
cana doymuş çadıracan...





BMT-dən ATƏT-əcən,
Maşın-maşın,
vaqon-vaqon.
karvan-karvan,
aşıb-daşır...
O hədd bilməz,
sərhəd bilməz
axır... hüdudları aşır.
Qoca, cavan, uşaq qanı...
Görünməmiş bir işdi bu,
şair canı.
Göstər, sözün qüdrətini,
göstər, şair!
Bu millətə, bu torpağa
olan qəsdlər
ilahi söz istər, şair!
içi-çölü yeyilən Vətən!
Dil-dil,
ağız-ağız
deyilən, Vətən!

Sinənə körpələri mismarladılar,
anaların kəsilmiş döşləri
əmzik kimi
ağızlarında...
Belinə bağlanan
qaynar samovarı
özünlə hara aparırsan, Ana!
Azıb qalarsan
fələyin qıc olmuş
yazılarında.

Qapılar açılır...
məsum-məsum,
təbəssümlər əsir
həzin-həzin.
Gəl, sevgili didərgin!
Hecalara bölünməyən
bu qan sənin!
Qan içində görünməyən,
itkin
ölüm mənim.
Buğlana-buğlana boy atan
qan.
Burum-burum burulan qan,
suallanan, nidalanan,
öz-özüynən qidalanan...
Gur-gur axır,
başı lovlu Kür kimi,
qaçır... qaçır...
İti-iti
ceyran kimi,
cüyür kimi.
İsti-isti
can yandıran.
canı yanan,
ona demə bir az dayan!
O dayansa laxtalanar
gör, nə olar?
qan qaralar.
Ortalıqda dumduru qan...
axır...
böyük, xırda günahacan,





dil-dil ötən dövlətlərin
hiyləsindən,
hikkəsindən,
məkrinəcən.
Gör haracan?
Üst-başı his Misirəcən,
üzü bumbuz Sibirəcən
səbrin bacası sökülür,
səbirəcən,
qəbirəcən.
Dərdin qan rəngi..
qan, qan, qan!
Boya göy üzünü,
Göy üzü bölünənəcən
Bürü yer üzünü
bu sevda ölənəcən!
Dünya yenidən doğulanacan!

***

Neft də bizim,
kef də bizim.
Bizim olan
(Yəni Sizin.)
Bəli, bəli əfəndilər
sizin, sizin.
Süfrəmiz var
könül açan -
Milli Sərvət!
gəlin xəlvət
qaça-qaça
dizin-dizin.

Nə gedirsə bizdən gedir,
lap dərindən, kökdən gedir.
Gəlib fərman
özü də ki, ağır batman,
möhkəm gedir,
bizim yerlər deyə-deyə
bizim olmur bizim olan.
Sözümüzün qabağında
o sözdürsə
sözüm olmur
viran olub partlamasın?
Bəs neyləsin?
ürəyində sözü qalan
aman dünya, aman tale!
Qanım sığmır yerə-göyə,
neftə sahib çıxan "dostlar"
bu qana da
çıxsın yiyə.
Milli Sərvət -
millət qanı...
canlı tarix.
Tanı vicdan,
sən də tanı...
Dedin vicdan?
vicdandı qan.
Göz oxşayır
rəngi aldı.
Ay qaniçən dadına bax
qaymaq nədi, bu ki baldı.
Günahsızdı,
təmiz qandı





lap neftdən də irəlidi
kibrit çəksən tez yanandı
mənim rəngim sənə bəlli -
Sən qınayan, sən tanıyan
qapqarayam mazut kimi
çırtma vursan
tez qanayan
qanlı şair.
Qıpqırmızı qan kimidi
qərənfillər...
Ah, o illər
ah, bu illər!
Gecənin zülmətinə yağdı,
qapqara bir yağmur kimi.
Qızıl kimi parıldadı,
işım-işım işıldadı,
topa-topa yağmalandı,
Üzü dan yerinə axdı.
Qızıl gülü dəst eylərəm,
qoynum dolar bəs deyərəm.
Zalımın qəsdi-qərəzi
bir yana
mən özüm-özümə
qəsd eylərəm.
Bu qızıl gül
qönçədi hələ,
sinəsindən qan fışqırır.
Bapbalaca bir qızcığaz
"qan, qan" deyib qışqırır.
Kiprikləririni qırov tutub
dörd yanını alov tutub,

Bu alovun dilim-dilim
dilləriynən
viran olmuş
bu xaraba könülləri danışdırır.
Bu bapbalaca qızcığaz
Nə tez böyüdü belə
Bir göz qırpımında,
qan içində,
əl-amanda.
Öz qanının arxasınca
baxır... baxır...
Qönçə-qönçə,
düymə-düymə
açır... qaçır...
qan çiçəyi,
Qan-qadanın ən göyçəyi,
ən gerçəyi.
Yolun hayanadı, bala?
uzağamı?
Çox gedərsən yorularsan,
acı-acı tənələrdən
qovrularsan
xırman kimi
sovrularsan
getmə uzun...
Yumurudu bu yer üzü,
o qədər də geniş deyil.
Çevrələnmiş
nişanlanmış
yerdə durma
bir qanad aç,





qanad, durnam!
Uç göylərə...
Xəbər apar mələklərə.
Söylə-söylə nə iş oldu?
Bir südəmər körpə idim
qana düşdüm
yaşım artdı
on beş oldu.
***
Ey... sən kimsən orada?
Qapını tıqqıldadan,
pəncərəni dınqılladan
yaddaş kimi çırpınıb
Ümid kimi qımıldanan.
- Günahsız qan...
- Ay aman
- gedirəm, baba!
- Getmə dayan!
- getməliyəm.
bu qandı, qan!
soydaşdı o,
qardaşdı o,
vətəndaşdı.
Mən oğulam,
özüm də düşmən çəpəri,
bu qan
mənim axan qanım
mənəm onun təpəri,
- Bir az dayan!
- Yox, babacan!
Bu qandı qan.

dövlətlər var azman-azman
keçməz bir qaşıq qanından
bəs biz niyə keçək axı?
Milli Sərvət -
- qanım mənim
gah tıncıxan,
gah üzülən canım mənim.
Bu boyda qan...
bu yolda can
niyə olmur sənə qurban
Azərbaycan!
Sənə qurban Azərbaycan!





# «SOYDAŞ»

*("Ulduz" jurnalı redaksiyasında*
*Qulu Ağsəslə söhbət)*

*İndi poema yazan çox azdı. Poema uzun məsafə qət eləməkdi. Şairlər uzaq yol getməyə ərinir deyəsən. Axırıncı oxuduğum poema Çingiz Əlioğlunun «Diaspora» poemasıydı. Rusiya diasporasından yazılan əsərə Amerikadan reaksiya gəldi, soydaşlarımız poemanı yüksək qiymətləndirdilər. Şair Ədalət Əsgəroğlu da bu günlərdə soydaşlarımızın həyatını nəzmə çəkib. «Soydaş» Novosibirskdə yaşayan azərbaycanlılardan danışır. İnanırıq ki, ona da etinasız qalmayacaqlar. Müəlliflə söhbət də belə düşünməyə əsas verir.*

**– Ədalət bəy, poemanı «Ulduz»a çox ərklə təqdim elədin. Bizimlə dostluğuna arxayınsan, yoxsa əsərinin keyfiyyətinə?**

– Mən daha çox dostlarımın keyfiyyətinə arxayınam. Siz zəif əsər çap eləməzsiniz. Arxayınlığım da elə ondandır.

**– «Soydaş» - indiki «postmodern» dövründə bir az «nimdaş» səslənir, nə əcəb poemanı «çağdaş dövrün tələblərinə uyğun» adlandırmamısan?**

– İndi hamı yeni görünmək istəyir. Bəziləri elə bilir ki, yeni nə varsa, yaxşıdır. Halbuki, yaxşı olan hər şey yenidir. Ədəbiyyat düstur sevməsə də, bu, aksiomadır. Əlbəttə, poemanı dəhşətli bir adla

da təqdim edə bilərdim. Və bu, dərhal diqqəti cəlb edərdi. Ancaq hərənin öz yolu var. Mənim məqsədim yaxşı əsər ortaya qoymaqdı. Adsa şərtidir.

**– «Ürəyə kimi», «Rüzgarlara oxşar», «Tovuz quşu kimi»... bənzətmələr misralar arasında «tıxac» yaradır. Onların yolunu açmaq olmaya yadından çıxıb?**

– Dünyada çox tıxaclar görmüşəm. Ədəbiyyata gələndə də basabas idi. Novosibirskə – soydaşlarımın yanına yollanandan əvvəl qatarda, sonra gömrükdə, sonra yenə gömrükdə, yolboyu isə müxtəlif stansiyalarda tıxaclara düşmüşəm. Qürbətdə yaşayanların nəfəs kəsən vətən sevgisi də bir cür tıxacdı. Görünür, bütün bu tıxaclar poemamdan təsirsiz ötüşməyib. Amma mənzil başına həm yolda, həm də poemada sağ-salamat gedib çıxa bilmişəm.

**– «Yarpağını payıza bağışlayan xan çinar»... Bu poetik tablo Novosibirskdə çəkilib, yoxsa doğulduğun Göyçayda?**

– Əlbəttə, xan çinarın vətəni haradısa, orda. Sadəcə, mən o xan çinarı qürbətdəki soydaşlarımıza pay aparmışdım. Onlar da mənim bu sovqatımı məmnuniyyətlə qəbul elədilər. Qayıdanda bir də baxdım ki, həmin xan çinar poemamın ortasında bitib.

**– «Qumrular soyuq qar dənələrini üstlərindən çırpıb uçar» - bu, poeziyadır, yaxud, «Sapanda qoyulmuş daş – yaddaş»... Amma onlar epik təsvirlərin bolluğunda qürbətdəki qərib soydaşlarımıza oxşayırlar...**

– Bunu məqsədli şəkildə eləmişəm. Çünki





qürbət həyatı təkcə poeziya deyil, nəsə ağrılı bir janrdı.

**– Poema sənin üçün uzun şeirdi, yoxsa nəzmə çəkilmiş qısa hekayə?**

– Açığını deyim ki, heç biri. Həm də hər ikisi.

**– Bir də görürsən ki, sevgidən yazdığın şeiri sevənlər oxumur... Sözümün canı budur ki, Novosibirskli soydaşlarımız hal əhlidilərmi? Onlara poema həsr eləməyə dəyərmi?**

– Səməd Vurğun buldozerçi Sarvandan qəhrəman düzəltmişdi. Həmin Sarvan sonra elə o poemaya layiq yaşadı. Mənim qəhrəmanlarımsa öz ömürlərini yaşayırlar. Hal əhli olanları da var, olmayanları da.

**– Poemanın axırında Bakı-Novosibirsk yazılıb. Deməli «Soydaş»ı qələmə alanda bir ayağın orda olub, bir ayağın burda. Bəlkə də ona görə mənə elə gəlir ki, əsəri iki dildə yazmısan – Azərbaycan və rus dillərində.**

– Doğru müşahidədir. Ancaq Azərbaycan dili dominant rol oynayır. Oxuyanda özünüz də görəcəksiniz.

**– Sonuncu sualım soydaşlarımızadır: Ədalət Əsgəroğlu oturub-durub deyir ki, Sibir əsl türk torpağıdır. Eləsə onda daha sizin nəyiniz qərib oldu?**

## SOYDAŞ

*...Məmləkətim, canım*
*mənim....*
*Üzümü sənə sarı tutdum*
*Adım, andım sən oldun.*
*Səni anıb*
*ağrıları*
*ovutdum.*
**Ə.Əsgəroğlu**

*Sibirin qarı mənəm,*
*Gün düşər ərimərəm.*
*Qorxma, möhkəmdir canım*
*Qürbətdə çürümərəm.*
**bir soydaşın dilindən**





...Vətənin içi
yürüyən uşağın
ürəyi kimi çırpınır...
Sevgilər
üzüm salxımları kimi
üzlərə gülümsəmədə...
Həsrətlər havalı
rüzgarlara oxşar
Tamarzı gözlərə tərəf
dartınır
Könüllər gərilmiş
yay kimi
işıq üzünə qəribsəmədə
Yarpağını payıza bağışlamış
Xan Çinar
Həmişəyaşıl,
boyu uzanıb gedən
küknar...
Biri dillənir
budaqlarını çırpa-çırpa,
Birinin budaqlarında
bəyaz qar topa-topa.
Qumrular soyuq qar
dənələrini
üstlərindən çırpıb uçar,
Qəriblər tələsə-tələsə,
qaça-qaça
Ümid ocağı bildiyi
qapıları açar.
Qürbət

isti iqlimlərin
soyuqluğunu çəkən
məkan
çox ağrılı olur bəzən
ya nimdaş geyin,
ya da tovuz quşu kimi bəzən
və yaxud da
təndir kimi
ocaqlar qala
fərqi yoxdur,
soyuqluq canındadır yenə
Bir yandan da
yaşadığın yer
Sibir ola

***

Ob çayı
Rəngi açılıb tutulan
Ömür yazısıdır sanki…
Mil-mil olub axar,
dairələnər, nidalanar.
Qışda buz bağlayar
qalınlığı topdağıtmaz…
Yayda sevdalanar,
tel-tel olub dalğalanar.
Dərinliyi boydan ötər,
neçə-neçə boya sığmaz.
Aşağı-yuxarı üzən
gəmilərin fitləri
gecələrin sirrini
oxuyar…





Sehirlənmiş röyaları
bənd-bənd kəsər yerindən
Bu səslərə amanabənd
müştəri həvəsiylə
taksi sürücüləri
bir ah çəkər dərindən…
Ləpə döyən yerlərin acısına
məlhəm olan ay işığı
həsrət dolu ürəklərin
bacasını gözlərinə təpən
qürbət…
Məni səndən soruşsalar
başı havalı gördüm
denən.
Səndən gəlib
səndən ötən
Kim olursa olsun
sənə yoldaş,
Mənə doğma, doğma
misallı qardaş.
göz ağardan
uzun-uzun yolların
yorğunu soydaş!
Doğma məmləkətin
qurbət boyu
səpələnən oğulları
Dalğa-dalğa
qalxıb enən
Misra-misra
sətirlənən,
sətir-sətir

səhifələnən
Gerçəkliyin
məsum-məsum üzəbaxan
qapıları.

***

Soydaş dedim,
bənövşə ömrünrə yandım,
Soydaş dedim,
qartal kimi
vüqarlandım.
Soydaş dedim
bərkimiş əllər kimi
qabarlandım.
içindən qan püskürən
körpülər kimi
qeyb olub buxarlandım.
Qürbətin hər üzündən
yüz minlərlə soydaş keçir…
Bu oranı
bu buranı,
başqa birisi
haranı seçir
orda da dayanır.
Çölçülükdən doyanı
geri qaytarmaq da çətin,
amma həmişə
üzü soyuqdur qürbətin
həmişə sevgiyə
köklənib yaşamaq olmur,
Ya da nifrət
havasına dolanmaq…





keçməkeşli ömür yazıları
tutub düzü - dünyanı…
Nə qədər ağır olsa da
şərəflə yaşatmalıyıq
Azərbaycanı.
soydaşım Sən,
İnsanlığın,
vətəndaş qeyrətinin
fövqündəsən…
gah udan,
gah da uduzan
Azərbaycan!
Əziz deyilmi
canımızdan.

***

Novosibirsk şəhərinin
boyun bağısıdır
Ob çayı
Əzəmətdə,
şöhrətdə
Heç görən varmı tayı?
Meşələr üzük qaşı kimi
dövrələnib
alıb sevimlisini
ağuşuna
bağ-bağatlar
vələs nar kimi
dənələnib
zinnət vurur
şəhərin şahanə duruşuna.
Rusiya ərazisinin

Mərkəzi olduğuna
bir nişanə…
qədim kilsə binası
tarixin abidələşən
aynası.
Sapanda qoyulmuş
daş kimidir yaddaş,
Atlanır,
ünvanlanır
xatirələrin günahsız
məkanına.
Bu küçə tanış,
bu döngə
yarımçıq içilmiş şərab kimi
necə vardısa
durub beləcə…
insan alnına
yazılan ömür-gün
dolayları
yaşandıqca əriyir
bircə-bircə…
Yaddaş silkələndikcə
dəbərir,
qımıldanır
qaranlıq kölgələr
bürünüb işıq selinə
gözlərin önünə gələr
doğmalaşan,
yadlaşan
bölgələr…
Novosibirsk





sevgili can
çox möhtəşəm
bir şəhər.

***

Dəmir yolu vağzalı –
hallı-havalı…
hay-küylü,
«xoş gedən», xoş gələn»
insanlarla dolu…
Bütün şəhərlərdə
olduğu kimi…
Qatar təkərlərinin səsilə
qoşa şütüyən xəyallar…
Hər insan taleyinin
özünə həmahəng
qatarı var.
Vağzal –
Xatirələrdə romantik
duyğular məkanı,
Kədər burulğanı,
Sevinc həyacanı…
Soydaş qarşıdan gələnə:
—Hardansan zemlyak?
(zemlyak ona görə deyir ki, birdən
gürcü, çeçen olar
ya da türkmən)
—Bakıdanam,
—Deməli Millətsən…
Can-ciyərimsən.
Buradan başlanan

soydaş tanışlığı…
keçən qatarların
qulaqlarında yaddaş sırğası,
Millətin üz qarası,
və yaxud üz ağlığı.
Çölçülüyün öz ampulası var -
müəyyən davranış
etiketləri..
Danışığına fikir verməyin
vacibdir,
gərək aldatmayasan
heç kəsi.
Səbirli olmaq
hava-su kimi qiymətli,
çox vaxt ölüm «təravəti»
gətirir bir kimsənin
tələsməsi…
Öz dilinə, millətinə
baş əyməyən soydaşı
sevməz bir ölkənin
vətəndaşı.
Uzaq başı
oynadar qamçı yeməyə hazır
yabı kimi.
Çölçülük də bir məktəbdir
xoşbəxti var, bədbəxti var.
O da baxır
tapır kimi.
Vağzal qabağı kefelərdə
beş-on nəfər soydaşım,
yığılıb süfrə başına.





qarmaq atır yaxına,
dünyanın o başına.
Bu da bir bəhanədir
bir yerə cəm olmağa,
bir-birini görməyə,
bir-birinə köməyə…
Dəb havasına,
dəm havasına,
qəm havasına
gəzən də,
gəzib-gəzib bezən də
yaşamaq «məhkumluğu»
içində əsir.
Sevgidən o yana
dan yeri, sabah.
Nifrət
sevgi məkanlarına
yolları kəsir.
Harda olursan ol,
Həyat eşqini
bakirə məbəd kimi
qorumaq gərək.
Yaşayıb, yaşatmaq
zor işdi
özü də sevərək.

***

Yaz yağışına
həmlə gələn çətir,
torpağın necə sevinməsini
bilməsə də olar…

hər halda sahibinin
dodaqaltı qımışması
ürək açan işdi deyə
o da qırışa-qırışa
açılar, yumular.
Tumurcuqlar gözlərin
alasını, qarasını
sonalayar.
Tuma oxşar girdə gözlərdə
ləçəkləyər
yazın gözəlliyini
öz içinə çəkilən
böcəklər daha yaxşı deyər.
Yaddaşın ürəyə diqtəsi
yağan yağışa mübtəla...
Əzizlənən adlardan savayı
damcılar başqa adları
yuyub aparır az qala.
Xoş günlərə çıraq adlar,
dar günlərə yaraq adlar...
İnsanlığı
Sevgi haləsi kimi
dairələyən Göy qurşağı.

Yaz yağışından sonra
göyərən çiçək-çiçək
tostlar,
Bir az da yaxın gəlin,
axın-axın gəlin!
Dünənə, bu günə baxın
gəlin!





ürəyimiz kimi
süfrəmiz də açıqdır
dostlar!

***

Qarsımış yaraların
iç göynəyi
darıxdırsa da ürəyi,
kiriyəcəyinə ümid var deyə
tələsmə öz bəxtindən
haqq, nahaqq
deyinməyə
Axtarıb arayacaqlar səni,
ürəyinə girənlər də
olacaq...
Mələk kimi, iblis kimi...
Qaralayacaqlar da səni,
həmişə yolunu gözləyən
iştəhası ülgüc kimi iti
polis kimi:
—uçaqdan düşdümü
ilişdirin qardaşını!
dama qoyun övladını!
Sonra rəis əllərini
ovuşdurar:
—Hə, soydaşım, durma, gəl!
gözləyirik, pulla gəl!
Dərisi soyulan,
amma inamı soyumayan
soydaş!
Belə şeylər də olur.
Vətənə dönməyin

hərdən çox baha
gəlsə də,
Mat qoysa da
səni bu ağrı, acı,
məmləkət sevgisi üzünü
sarı sünbül torpağın
qarışığını açan
kimi açır.
Ancaq, yenə də
hər şey gözəl olacaq
deyə
Ümidlə baxırsan
gələcəyə.
Üz tutduğumuz məbəd
Üzü mübarək Vətən!
Onun necə sevimli
olduğunu
sən hamıdan
yaxşı bilirsən.
Xoşca qal, həsrət!
Xoş günlərin çox olsun, soydaş!

Bakı – Novosibirsk
2005



# Qar üstə qırmızı yazı var

Kədərli bir ömür sürürəm,
Həsrətim yosunlu sahillər.
Röyada dənizi görürəm,
Ah, bir də gümüşü gəmilər.

Qəfəsdə vurnuxan quş kimi,
İçimdə boğulub qalmışam.
Qəflətdən kəsilən baş kimi,
Vücudu tarımar olmuşam.

Bir sözə yetməyən dilimi
İş bilib kəsdilər dəlilər.
Sonra da bu dilsiz dərdimin
Dərmanı ölümdü dedilər.

Onun da mis rəngli üzü var,
Asilər gözlərin bağlasın.
Ya gizlin, ya da ki, aşikar
Cənnəti sevənlər ağlasın.





***

Göstərin ona da həyatı,
Bir deyin, necədi o dilbər?
Uçurmu göyərçin sayağı?
Acımı, şirinmi, kim bilər?

Dururmu qapılar dalında?
Başına vururmu aclığı?
Gündüzlər ümidsiz qalanda
Dadına çatırmı yazdığı?

Gəlirmi özünü öyməyə?
Onu da qovurmu qadmı?
Dil gərək bu dərdi deməyə
Deyimmi bu dərdin adını?

Tökürmü başına külləri?
Ahları çəkirmi dərindən?
Son anda öpərək kəndiri
Qaçırmı səfillik əlindən?

Bururmu boynunu qəm yükü?
Qonurmu ürəyə o dilbər?
Allahın önündə diz çöküb
Edirmi tövbəni... kim bilər?

***

Səni də əridər qəm-kədər,
Gəl, barı sən qıyma dərdinə...
Nə üzüb-düzürsən bu qədər?
Öl qurtar, əməl et vədinə.

Dəlisov dalğalar aramsız,
Hey didir, dağıdır sahili...
Köpüklü sularda amansız
Ölümün yelkənsiz sahibi...

İçini-çölünü buz döyür,
Bozarır gecənin şərinə.
Kiriməz ağrılar çor deyir
Çopurlu dərdlərin "şəninə".

Göz yaşı - su dolmuş bir qayıq,
Gecənin ağarmış bənizi...
Dan üzü qızarmış şor balıq...
Səfillik yandırır gündüzü.





***

Qara yel yolumu mat qoyub,
Addıyır gör neçə qatımdan.
Əhd edib bir kişi, ad qoyub
Bax, indi nə qalıb adımdan?

Nə deyim yetişən sabaha,
Deyimmi, gecikmiş bu günsən?
Üz qoyub pirani ocağa
Yerimi iki qat bükülsəm?

Günahım ovcumda dupduru
Yaşanmış ömürdən ələnib.
Qarşımda acizlik şah durub,
Bıçağı sümüyə dirənib.

Gəl, məni təngitmə bu qədər,
Olanım bu quru canımdı.
İçində kif atan dərd-kədər,
Hayıf ki, məni gec tanıdı.

***

Bu payız kamına çatmamış,
Xan çinar qaşların çatmamış,
Vələs nar üzünü çərtməmiş,
Qar yağdı nə yaman, nə yaman.

Bir qaçqın koması içində,
Qəm yükü bəmbəyaz biçimdə.
Qos-qoca ölüm var seçimdə,
Qar yağdı nə yaman, nə yaman.

Yellənir sevdalı bir qapı,
Bir dəli əlində qartopu.
Divanə ürəyin gupgupu,
Qar yağdı nə yaman, nə yaman.

Bir özgə dəm-dəstgah qurulub,
Yol üstə əsəblər burulub.
Sürüşən sürüşüb, yorulub,
Qar yağdı nə yaman, nə yaman.





***

Ah, yenə mən deyən olmadı...
Ah, qəmi qəm üstdən hördülər.
Ha döndüm, zalımlar qoymadı,
İçinə töküldü körpülər.

Turş daddı səhərin yazısı,
İçinə çəkildi mələklər.
İçində mələdi quzusu,
İçindən söküldü məmləkət.

Yaxşı da öymədi yaxşını,
Can çəkdi pisə-pis deməyə.
Soruşdum mərdliyin yaşını,
Verdilər sözümü küləyə.

Dad çəkdim sinəmin dağıynan,
Siz deyin, bəs insaf hardadı?
Dedilər: "Get yolun sağıynan,
Biz harda, zülüm də ordadı."

***

Tak-tarak, tak-tarak, tak-tarak,
Limonad, barjomi, badamlı...
Tak-tarak, tak-tarak, tak-tarak,
Dadlısı püstədi, badamdı...

Qatarın yolları mil kimi
Ucalır, dağılır fit səsi.
Bu qadın susqunun qənimi,
Üzündə müştəri həvəsi.

Tak-tarak, tak-tarak, tak-tarak,
Danışdır, durular marağı.
Dedinmi, gətirər çaparaq
Piyvəni, çaxırı, arağı.

Araba səs salıb dillənir,
Şütüyür aşağı, yuxarı.
Dayanır, yeriyir, dirənir
Yorğunluq əlindən yuxalıb.

Daşıyır vaqonlar tünlüyü,
Dartılır libası gərdişin.
Bələdçi kimisə tinliyib,
Çətin ki, tərgidə vərdişin.

Qarşımda lal durub ağ varaq,
Fikrimdə dolaşıb azıram.
Tak-tarak, tak-tarak, tak-tarak,
Doqquzluq hecada yazıram.





***

Kim belə dünyadan bezərdi?
Ölərdi şad-xürrəm, bəxtiyar.
Ta tuta dərdindən beş əlli,
Beş əlin bir ələ borcu var.

Bildilər sənin də qədrini,
Tökdülər turşumuş gözyaşı.
Beş əllə əydilər qəddimi,
Bir əllə qoydular baş daşı.

Açıldı ağılar gözəli,
Yumuldu, büküldü o ki var.
Ət kimi çeynənən təsəlli,
Yanağı cızılan ahu-zar.

Dadanda sözünün duzunu
rəng aldı yaşılbaş sonası.
İçində mələmiş quzunu,
şükür ki, eşitdi anası...

Vədəsiz yetişən payızı,
Vədəsiz deyilən söz tutub.
Şairim, yandırım kağızı?
Qələmin gözünii buz tutub...

***

Bu gülün adını demirəm,
Desəm də bir kimsə tanımaz,
Dərmişəm, yovuşmur əlimə,
Dərdini bilmirəm, qınama.

Dad çəkib ağlayır bayaqdan
Qırışıb sözlərin ütüsü.
Burulub, bozarıb bucaqda
Acıqlı ocağın tüstüsü.

Gecənin gözünə tül atıb
Gözümdən düşürəm gör necə!
Bu gülü ölüyə oxşadıb
Gündüzə qaçıram gizlicə.





***

Ah, başım bəladan nəm çəkir,
Qara yel -"ümidlər gölündə".
Başım nəm, ürəyim qəm çəkir,
Tər sinəm xərabə şəklində.

Sabahın ədalı buyruğu,
Hökm edir əlləri belində.
Görünür xoruzun quyruğu
Tapılmış tapmaca şəklində.

Bu dərdin dil açan yeri yox,
Şükür ki, duası dilində.
Qırmızı, ağ, sarı gülü yox,
Duruşu bənövşə şəklində.

Gəbərər qaniçən zalım da
Qartımış ağrılar əlində.
Tökülər qırışmış alnından,
Yazılar piyalə şəklində.

Doldurun ləbələb, doldurun,
İçəlim şərqilər içində.
Zalımı beləcə qaldırıb
Endirək şahanə şəklində.

***

Quş uçub quşkeçməz qaladan,
Günahlar təzə-tər, dərd yarı...
Bir namə yazıblar qaradan,
Qarası ağardıb yolları.

Bənizi ağarmış yuxunu
Səriblər günəşin altına.
Gecələr bacadan baxanın,
Gündüzlər söyüblər zatına.

Öyməyin ağ atlı oğlanı,
Tökülüb gözünün qarası...
Çağırın köməyə loğmanı,
Soyuqdan qurd salıb yarası.

Baxışlar dərinə zoğ atıb,
Gəmirib quş kimi boşluğu.
Boşuna deyilən bayatı
Başına yağdırıb daşlığı.

Parisdə dərdimdən ölən, vay!
Div kimi canım var şüşədə.
Boğazı üzülən torağay,
Başını tapdınmı Şuşada?





***

Səni də haqladı qocalıq,
Üzündə beş günün qarası...
Alnında qırışlar qarışıb
Daralıb qaşla-göz arası.

Bir kövrək baxışa qol qoyub
Yorursan yaddaşı yol boyu.
Bu gülməşəkərdən kim doyub?
Acıdı, de görüm harası?

Bürüşmüş qarğışı can sıxır,
Ütülmüş alqışı tünd çıxır.
Ələnən yerişi tıncıxır,
Sürünür dalıyca əsası.

Əlində təsbehi lal-dinməz,
Dənəsi xam düşər, ilinməz.
Gedənlər haqq gedib, ta dönməz...
Get, baba, ölümdü burası...

***

Əzablar sinəmə od vurur,
Tüstüsü qafamdan çıxır, bax!
Ah, necə sakitcə uyuyur,
canavar ağzında bir uşaq.

Yanağı güllənib mis kimi,
Sinəsi ağaran bəyaz qar...
Dürr tökür Tanrının qələmi
Qar üstə qırmızı yazı var.

Bir soruş, tifilin adını,
Lal olar röyalar yavrusu...
Dualar açmayan qapının
Qəddini fələklər qurutsun.

Tərsinə çevirib varağı,
Haqq sözü dibindən əydilər.
Qeyb edib kimsəsiz uşağı
Bu, cənnət quşudur dedilər.





***

Qarası eşqidən göyərdi
Ağrısı bir hovur yatmadı,
Tənələr tikansız gül əydi
Tanrısı dadına çalmadı.

Soluxmuş çiçəyin nisgili.
Çırpınan xatirə varağı...
Səbr eylə sevdalar küskünü
Səngiməz nə dərdin var axı?

Güzgünün üslünə həvəslə,
Gülməli söz yazıb bir dəli.
Təngidib bülbülü qəfəsdə
Gözünü çıxardıb sərsəri.

Keçilmiş yolların həsrəti
Çeynənmiş sözlərə dartınır.
Qapını bağlayıb xəlvəti
Qınayır «xoşbəxtlik» kartını.

Qan sızır qələmin canından
Yeriyir ağ kağız üstünə.
Nidalar sıyrılıb qınından
Dayanır «bəxtəvər» qəsdinə.

***

Gecələr qarışıq yuxular,
Gündüzlər gümanlar bulanıq...
Bənizi ağaran qorxular
Səhərin şehilə sulanıb.

Könlümün işığı şahanə,
Hay-küyü dəm tutub mürgüdən.
Qapının bu üzü divanə
O üzü gümüşü güzgüdən...

Bu gələn məni də tanımaz
Zoy atıb göyərər sinəmdən.
Gül ıızlər haqq sözü qınamaz
Qınasa ölərəm dərdimdən.

Rüzgarın gözləri yamyaşıl,
Qumrular donunu dəyişər.
Sabahın adını sən daşı
Bu bahar, bu da ki bənövşə.



# Bəxt quşları da köçəridi

***

Qu quşlarının
küknar ağaclarının
gur olduğu yerdə
şeir oxumaq
mənasızdı deyə
susub dayandım.
Susmaq bəraət deyil, dostum...
Bəraət qazanmağa
hələ vaxt var deyə
Saxtakarlıq etməyim də
Kişilikdən deyil.
Günahsız körpələr kimi
ağlayan şeirlər
Günah daşımırlar deyə
Günah daşıyanlara
Biz məsumuq,
Biz mələyik
sözlərini deməyəcəklər
Bəlkə nə vaxtsa,
deyəcəklərinə
inamım da yoxdu...





***

Gen qapılar arxasında...
Nələr var, nələr, İlahi!
Bu sirdisə səndən başqa,
Bunu kim bilər, İlahi!

Kahasında yırtıcılar,
Haqqı tikə-tikə bölür.
Sinəsində qızıl güllər,
Şairlər bənövşə ölür,
Kim belə ölər, İlahi!

Qan sorurlar zəli kimi
Diri gəzir ölü kimi.
Əl çalırlar, oynayırlar
Heçdən gülən dəli kimi,
Kim belə gülər, İlahi!

Yığışıb gəlir hamısı,
Həm dəlisi, ağıllısı.
Haqqın «sökülən» qapısı
Adınla döyülər, İlahi!
Zalımın zalımı yoxsa
Kim əlac eylər, İlahi!

***

Mən şer yazıram min bir günahnan
Günah taleyimdi, yazmasam olmur,
İnsanlar yaşayır hərə bir adnan.
Ağlayanlar zar-zar ağlamağından,
Gülən vərdişindən doymur ki, doymur.

Haqqa asi düşən, haqdan dinənim,
Haqqın şairidi bu başıdaşdı.
Zar-zar ağlayanın, hır-hır gülənin,
Dünəni, bu günü gözləri yaşdı.

Elə adı çıxıb fələyin, yoxsa
Tükün lələk edib fələk nə yazıb?
Xəttat xəta edib bəlkə nə vaxtsa,
Şair dediyini tərsinə yazıb.

O yazıb adını böyük hərflə,
Bəs niyə balaca yazıb Allahı?
Cəlladı vəsf edib şanla-şərəflə,
Bu şair adıma yazıb günahı.

Min illik kədəri qara qat kəsib,
Bir ümid yöxdumu üz ağartmağa?
O hansı şairdi qara daş gəzir,
Ovcunda sıxaraq can çıxarmağa.

Bağrı viran olan can evimi gəz,
Görginən cansökən qara qanları.
Qəmi qəm üstünə yığanda dəst-dəst,
Qına mən şairi qınayanları.





Kömürlə yazıblar alın yazımı,
Qan ilə yazılır mən yazan yazı.
Bağları viranə qalan yazımı,
Gülməli söyləyən zamanə yazıq.

Mənə babalardan dərd miras qalıb,
Üzümdə qəm tutub qocalıb günah,
Mənim dincliyimi bir zalım alıb,
Səndən Allahlığı kim alıb, Allah!

Mən şer yazıram min bir günahnan,
Günah taleyimdi, yazmasam olmur...

***

Gedirəm baharı qarşılamağa...
Gəlin kimi
saçlarını yana tökən
bahar –
Səbətə sığmayan
çiçəklərin
qucaq-qucaq sevincini
daşıyar.





***

Kədərli üzə qonan,
kədəri üzdən qovan
təbəssüm...
Göy üzündə qızaran
bulud kimi...
Yaz yağışı havasında
Sabahın gerçəklik himni...

***

Rüzgar ötür…
Kimәsә şirin,
kimәsә acı…
Fәrqinә varmadan
bülbüllәr bizimçün oxuyur,
güllәr bizimçün açır.





***

Yaz havasına
yazılan misralar…
Qәm havasına
qanıyan viranә könül.
Gül-çiçәk
Sıralanıb
Hüzünlü gözlәrin
kirpiklәrinә düzülür.

***

İlk bahar çaşqınlığı –
zoğ-zoğ
pöhrə verir günah
Arada bitmiş gün…
Bir də bitib tükənməyən sabah.





***

Qönçəm aç,
göyərçinim uç,
cocuğum qaç…
Bu yaz
həyat eşqi zor
Ümidlər il ağzına sığmır.

***

Getmək istəyirsən, get!
Qalmaq istəyirsən, qal!
getməklə qalmağın arasında
düyün-düyün hənirti
Yaz yağışının
göyərtdiyi qalmaqal.





***

Bu, ayrı güldü,
- Xarı bülbüldü.
çəkilmiş şəkil
1992-ci ilin mayı...
Həsrətin sinəsində
açılır on beş ildi...
eh... bu gül də bizim idi...

***

Günəş işığına həsrət
Əl içi boyda mənzil.
Gözümün nuru,
Gedirəm baharı qarşılamağa
Bir az dözərsənmi mənsiz?





***

Qocalar evinin
hasarı çiçəklədi,
əl ağacı səssizliyi
döyəclədi
Çiçəklədi
kökdən düşmüş yaddaş da…
Sözə, vəsiyyətə lüzum yoxdur.
İki bükülmüş ağ varaq
bənövşə kimi
mürgülüdü.

***

«Qərib –
dostu olmayandır…»
İnsanlığa qərib olma,
dostum!
İnsanlığa qərib…
Deməli, dünya ondan
üz döndərib
Ən azından,
yaz ağzında
Göyərən otlar
açmadısa qırışığını,
Görmədinsə
gerçəkliyin yaraşığını
Köksündə balta yarası,
gözü yaşlı
Çinarı qucmadınsa
Baharı qatar-qatar daşıyan
durnalara qoşulub
uçmadınsa…





***

«Qorx aprelin beşindən
Öküzü ayırar işindən…»
Martda yağar,
apreldə durar,
Martda yağmaz,
apreldə durmaz.
Xatirələrə yağan yağmur
ümidləri də göyərdə bilir.
Amma xatirələrdə yamyaşıl
qalmaq
İlahi işdi, gülüm!
Şair, yaz yağışı səni də
tutdumu?
Tanrının yazdığı
şeiri dinlə!
Onda görərsən
itkin düşmüş
bir nəğmədi ölüm.

***

- Adın nədir?
- Yalan
- Belə ad olmaz, balam!
- Olar, olar...

Qəribə adam.
Doğru yandan
ağzı yanan
nə varsa mənəm.
ağzı dualı, gözləri gülər...
məni yazan qələm
ağrı-acımı
hamıdan yaxşı bilər,
Mən danışan diləm!
adamı susuz aparıb
susuz gətirən...
Pambıqla baş kəsən
yalanam.
Dəllalın cibiyəm
Şairin sözüyəm,
Həkimin gözüyəm,
Hakimin zəhmiyəm
Mən qollu budaqlıyam,
köklüyəm.
Həqiqətin yozumuna,
dünyanın eninə, uzununa,
gerçəklik donunda
girən mənəm.
Tükü ipək göyərçinəm,





Hamıdan cəld sivişib
sabahın qoltuğuna
sığınan mənəm.
Günəş doğmamış
dan üzündə sevdalanan,
şüalanan, sonalanan,
kəsiləcək qulaqlarda
sırğalanan
mən...
Qartal təki süzən,
Bülbül təki ötən...
Göyçək-göyçək doğulan
gerçək-gerçək bitən
yalanam!

- Bal kimiyəm

günün hakimiyəm...

***

Gördünmü yağışı, necə yağırdı?
Necə islanırdı mürgülü məkan?
Çaşqın nəzərlərdən od şaxıyırdı,
Bənizi ağarmış gecə yarımcan...

Pəncərə önündə bir nişanlı qız,
Əyir sağa-sola bəxt üzüyünü.
Uçur dan yerinə bu canı yanmış
Açır çətir kimi dərdsizliyini.

Qaçır gümanlara, gümanlar sağır,
Ürək suyu daman çardaq misalı...
Bir gözü yumulu, bu gözü açıq,
Ümidlər qıvrılır dili haçalı.

Gerçək könüllərin baxışı məsum
Gecənin köksündə sayrışır nəzər...
Haqqdan dönənləri yağmurlar yusun
Haqqın sabahına and içir gözəl.





***

Mənə bu günü sevdirin...
onsuz da sabahı
sevməyə məhkumam
Tər sevdalar həvəsində
nə "kam", nə də "nakam"
sözləri gəlməz ağlıma
Ağlama...
Ağlamaqdan doyduq...
haydı gülməyə doğru!
Gördünmü, bəxt quşunu,
gördünmü?
Etibarsız olub uçdu –
özü də necə uçdu.
Güldünmü? O ki var güldünmü?
Gülüşlər ehtirasların
Silkələnən vücudu...
Öpdünmü günahsızlığı?
Əyildinmi
bir cocuğun
yer kürəsini qucaqlayan
əllərinə?
Düşüb göyərçinlərin arxasına,
Yırğalana-yırğalana
Yeridi.
Uçmaq istədi göyərçinlər kimi...
Onu da çəkdimi
Göylərin təmizliyi.
Böyüdümü -

Qoparda bilməzsən yerdən...
Bəxt quşları da köçəridi
Heç bilməzsən hansı
ünvandı odaları
Amma göyərçin balamızın
şəkər dünyasıdır
göyərçin balaları.





***

Mən ölə bilirəm durduğum yerdə
Bax, elə-beləcə, xəstələnmədən.
Şeirim asudə quş olub birdən
Uçar sevgisinə qəsd eləmədən.

Çarpan qanadları gümüş aynalı,
Üz-üzə gəldinmi göz qamaşdırar
Ötən həftələrin, gələn ayların,
İçində od gəzib, köz qarışdırar.

Uç, uç sabahları özünlə daşı,
Məndən ötə gedən nəğməmdi bu gün.
Bu kimin üçünsə bir ölüm marşı,
Təsəlli himnidir başqası üçün.

Yığışar başıma doğma da, yad da
Qəm-kədər sivişib girər yaşmağa.
Mən adlı bir şair varsa dünyada,
Onda tələsməyin vidalaşmağa.

***

Bir-biriylə güləşən buludlar,
Qan-qan deyib düz çəkər qarasın...
Sınıq düşüb gül üstə umudlar,
Donub qalıb sevdalı qapısı...

Bu dəlisov yağışı gördünmü?
Rüzgarlara bənd olub danışdı.
Aydan arı ağ quşu gördünmü?
Ölümüylə vədəsiz barışdı.

Alışmaqla sovuşmur ağrılar,
Barışmaqla ötüşmür acılar.
Pəncərədə oturub vurnuxar,
Yaz havası misallı cocuqlar.





# SEVGİLİ TÜRKİYƏYƏ BİR CÜT SÖZ...

(Almas İldırımın adına deyildi)

Köklü-budaqlı Türkiyə!
Sinəsi sabahlara açıq
Başı buludlara bağlı
Türkiyə!
Qüdrətdən umsunan
İlahi söz kimi...
Sözü ötkəm
Qara bir türkəm.
Savaş söz,
Barış söz,
Əllidən, yüzdən
böyük söz,
özdən böyük söz.
El ağzına sığmır söz
Doğulduğu
məkandan
daşınır dünyalaracan.
Uçur böcək kimi,
açır çiçək kimi,
açır yaz havası
kimi bir yerdə durmayan
körpə mələk kimi.
El ağzıdı Elazığ...
ağız-ağız
yaşanan qos-qoca söz

Ocaq kimi alışan upuca söz...
İsmarlandın sevdalara,
Misralandın şırım-şırım...
qos-qoca Almas
İldırım.
Başı daşlara dəymiş
Millətin
Dərdlərini yazmaq nə çətin...
Boyu uzun dərdlər,
Qarnı yoğun dərdlər...
Nağıllar uzunluğunla şirin
Həqiqət qısalıgıyla acı
Elə buradaca haçalanır dillər
Qana susayır ölüm, dar ağacı.
Gerçəkliyin qənimi
Birmi, ikimi?
Dövrün lopabığ hakimi
Zamanın keçisaqqal isimi
Haqqa sahib söz,
Haqq sözə möhtacdı sabahlar
Nakam şair ömrünün
Nə yaxşı ki,
Almas İldırım
gerçəkliyi var.





# DİRİYKƏN ÖLÜ

Gözlərini qapamayıb...
Ağzına su almayıb..
Qulaqlarında tıxac yox...
kar kimi,
kor kimi
lal kimi
görünür amma...
Kar, kor, lal deyil
görür gözləri,
eşidir qulaqları
bəli, xeyir deyir
dili hərdən.
Daim hərəkətdədir
dürtülür mətləblərə
gözlənilməyən yerdən.
Bir cocuğun başına
sığal çəkməz.
Ağac becərməz,
buğda əkməz.
Uzanıb gedər uzun-uzun.
Şahələnər enni-enni.
Bir gözünü açar,
bir gözünü əyər...
Son nəfəsində
"Mən bir cənnət
adamıyam" — deyər.

***

Deyir şairəm mən!
Özü də lap böyüyündən...
İnanma oxucu!
Bu da bir şoudur
Şair mərd olar,
ürəyini açar
süfrə kimi
Olar ipək təki zərif,
mülayim, səmimi.
Sinəsi çiçəkləyər
içini gəmirməz
dəvə kini həqiqəti sevər
Sevgisində sətirlənər
millətinin
təbbəssümü, göz yaşı
canından da əziz bilər
ana torpağın
ağacın, daşın.
Yoxdursa bunların
heç biri
Onda bu şaircik kimdi?





***

Sevinc yağışları
çoxdan səngiyib,
Gülüş səsləri qulaqlarda
durulmur
Göz yaşları da
gözəlliyini
itirib.
Sükut içində
daş kimi lal-dinməz
dayanmaq da olmur.
İnsanlıq mənzərəsi
Bozarır, bulanır
onda…
ya da yer üzünün
unudulmuş dolaylarını
dolaşır yaddaş
Bəlkə gülüncdü?...
bəlkə ağlamalıdı?...
Bəlkə də dünyanın
Yenidən doğulmaq vaxtıdı?
Yenidən doğulaqmı?

# ADIMLA ÜZ-ÜZƏ

Durmuşuq üz-üzə... Bu sən, bu da mən...
Sükutun üstünə tək-tək qar düşür.
Bir vaxt saymazyana yanından ötən
Hüzünlü rüzgardı sənlə görüşür.

Sözlər yaxasını dartır kənara
Bir kəlmə söz tapıb nə deyim axı!
Hərdən adım gəlib yetişir kara
Qaldırır aradan dağ boyda dağı.

Nədir məni sıxan bilmirəm düzü,
Kədər düymə-düymə açır köksünü
Qızılı hərflə yazdım haqq sözün,
Şərəfdir yaşamaq sözün ömrünü.

Zalımın başıma vurduğu daşlar,
Pambıq tək yumuşaq, kül kimi zərif.
Bunu qəsdnən belə dedim ki, dostlar
Ağrımı, acımı bilməsin hərif.

Onun nə vecinə adamam mən də,
Ürəyim süfrə tək hamıya açıq.
Hamı ovuc-ovuc nuş eyləyəndə
Mənim özümə də çatır azacıq.

Ən qədim sözlərdən biridi adım,
Nuhun ya birinci, ya son sözüdür.
Bu ada söykənib haqqın övladı,
Bəlkə Tanrı elə sözün özüdür?





Mələyin dilində çiçəyə dönüb,
İblisə, Şeytana qandı, qadadı.
Fağır üşüyəndə ona bürünüb,
Daha soruşmayıb Tanrı hardadı.

İçindən alışıb çölündən sönən,
Budağı budanan bu ada heyif.
Bu günə haqq verib yaşayan dünən,
Sabahın adına qiyamət deyib.

Könlümə baş əydim, Şahənşah dedim,
Yazdım ürəyimi könlüm doyunca.
Nə dedim, düz dedim, haqqa haqq dedim
Qaçmadım adımdan ömrüm boyunca.

Durmuşuq üz-üzə bu sən, bu da mən,
Sükutun üstünə tək-tək qar düşür.
Bir vaxt saymazyana yanından ötən
Hüznlü rüzgardı sənlə görüşür.

***

Karvan-karvan can üşüdən zavalnan,
Hara gedib çıxa billəm bu halnan.
İnnən belə denən zurna-qavalnan,
Hayın getdi, vayın qaldı, Ədalət.

Qərib durna qanadının lələyi,
Ağ-qara yaz viran olmuş ürəyi.
Sözə çəkin üzü dönmüş fələyi,
Zalım gördüm əli qanın içində.

Zalım gördüm əli qanın içində,
Bəla verdi, diri yandım içində.
Saç ağartdım bircə anın içində,
Hayı getdi, vayı qaldı ömrümün.

Hayı getdi, vayı qaldı ömrümün,
Dost gözündə payı qaldı ömrümün.
Qışa məhrəm yayı qaldı ömrümün
Dedi məni yava dillər, ay aman!

Dedi məni yava dillər, ay aman!
Yedi məni qara günlər, nə yaman!
Dildən olsun görüm məni qınayan!
Qəmlər məni çürütməsin, neyləsin!





Qəmlər məni çürütməsin, neyləsin?
Açsın yükün, düyməlƏsin heybəsin.
Mən dadmışam cəhənnəmin meyvəsin,
Cənnət quşu gədaların öyündə.

Cənnət quşu gədaların öyündə,
Allı-güllü köynəkləri əyində...
Adım gəzir indi hansı löyündə?
Hayın getdi, vayın qaldı, Ədalət.

***

Yenə düşmən atır,
yenə əks-tərəf
cavab verir.
Yenə düşmən susdurulur.
Yenələngər vurur
Səbrlər.
Yenə burulmuş yay kimi
İşə düşür həmsədrlər
Yenə quyruğu çömçəli söhbət,
Fındıq-fındıq
söz tullayır ekspert
yenə ehtimal var – görüşə bilər
iki Prezident -
özü də tetatet
Yenə yaz ağzıdı
Yenə payızda
cücələri saymaq azarı.
Yenə qanun şahdı
Yenə əzizdi Ana torpaq.
Yenə hər gün, hər sabah,
dünya cənnətə dönür
Yenə yaddan çıxmır Qarabağ.



# BÖLMƏLƏR

Poemalar.............................................3
Qarüstəqırmızıyazıvar.....................................61
Bəxtquşlarıdaköçəridir....................................77

**ƏDALƏT ƏSGƏROĞLU**

Xocam Xocalı!

**Nəşriyyat direktoru:** Oqtay Əliyev
**Korrektor:** Aytəkin Ədalətqızı
**Dizayner:** Elşad Ədalətoğlu
**Texniki redaktor:** Emin Malikoğlu

Yığılmağa verilmişdir:01.01.2012
Çapa imzalanmışdır: 14.02.2012
Sayı: 300 nüsxə
Qiymәti müqavilə yolu ilə

**«ƏRGÜNƏŞ»**
*mətbəəsində hazır diopozitivlərdən çap olunmuşdur.*



Az 2012
1696

Bu dərdin dil açan yer
Şükür ki, duası dilində.

***

Nağıllar uzunluğuyla şirin,
Həqiqət qısalığıyla acı.

***

Gülüş səsləri qulaqlarda durulmur
Göz yaşları da gözəlliyini itirib.

***

Yaz yağışı havasında
Sabahın gerçəklik himni...



Ədalət
Əsgəroğlu

330